## 2019-cu il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarətinin vəziyyəti

Naxçıvan Muxtar Respublikasının 2019-cu il ərzində 63 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi **497068,6** min ABŞ dolları olmuşdur. Bu müddət ərzində **425539,4** min ABŞ dolları dəyərində mal ixrac, **71529,2** min ABŞ dolları dəyərində mal idxal olunmuş, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo **354010,2** min ABŞ dolları təşkil etmişdir.

2018-ci il ilə müqayisədə 2019-cu il ərzində ixrac əməliyyatlarının həcmi 0,3 % (1272,8 min ABŞ dolları) artmış,idxal əməliyyatlarının həcmi isə 20,9 % (12364,2 min ABŞ dolları) artmışdır.



İxrac əməliyyatlarında xüsusi çəkisi böyük olan dövlətlərdən İran İslam Respublikası,Türkiyə Respublikası,Gürcüstan Respublikası, Rusiya Federasiyası və digərlərinin adlarını çəkmək olar. Hesabat dövrü ərzində **425539,4** min ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bunun 323309,0 min ABŞ dollarını, yəni ümumi ixracın 76%-ni sənaye məhsulları, 102230,4 min ABŞ dollarını, yəni ümumi ixracın 24%-ni isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir.

Qeyd edək ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının ixracı **0,3** %, kənd təsərrüfatı məhsullarının ixracı isə **0,4** % artmışdır.

İxracın strukturunda əsas yeri tutan əmtəələrin bölgüsü aşağıdakı kimidir:



İdxalın strukturunda əsas yeri tutan əmtəələrin miqdarı və dəyəri aşağıdakı kimidir:

| | Dəyər (min ABŞ dolları) |
|---|---|
| 1. Müxtəlif avadanlıqlar və onların hissələri - | 26295,0 |
| 2. Nəqliyyat vasitələri və onların hissələri - | 14333,9 |
| 3. Digərləri- | 10467,5 |
| 4. Sənaye məhsulları- | 8036,2 |
| 5. Ərzaq məhsulları - | 7210,3 |
| 6. Tikinti materialları - | 5186,3 |



İdxal əməliyyatlarının ölkələr üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:




Qeyd etmək lazımdır ki, hesabat dövründə idxal əməliyyatlarında özəl sektorun payı 48229,9 min ABŞ dolları,yəni ümumi idxalın 67%-ni, dövlət sektorunun payı 20960,8 min ABŞ dolları, yəni ümumi idxalın 29%-ni, fiziki şəxslər isə 2338,5 min ABŞ dolları, yəni ümumi idxalın 4%-ni təşkil etmişdir.

İdxal əməliyyatlarının sektorlar üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:

